# Əhalinin sosial güvənliyinin təminatı prioritet istiqamət olaraq qalır

**Azərbaycanda son illər əməkhaqları, pensiya təminatı sahəsində aparılan ciddi islahatlar, sosial sahə ilə bağlı qəbul olunan çoxsaylı qanunlar, sərəncamlar cəmiyyətin rifah halını xeyli yaxşılaşdırmışdır.**




Ötən ilin dekabrında Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncamı isə aparılan sosial islahatların uğurla davam etdiyini göstərir. Həmin sərəncamla bu il yanvarın 1-dən əməkhaqları və pensiyalarda növbəti artımlar olmuşdur. Belə ki, minimum aylıq əməkhaqqı 400, minimum təqaüd 320 manata çatdırılmış və pensiyalar indeksləşdirilmişdir. Bununla 2018-ci ilin əvvəlindən




minimum aylıq əməkhaqqında 3,1, minimum pensiyada 3, orta aylıq pensiyada 2,6 dəfə artıma nail olunmuşdur. Qeyd edək ki, indiyə kimi Azərbaycanda 4 milyon insanı əhatə edən 5 sosial islahat paketi icra olunub ki, bu da sosial ödəniş artımlarına illik əlavə 7,6 milyard manat ayrılması deməkdir. O cümlədən müavinət və təqaüd ödənişləri üzrə son 7 ildə 5 dəfə artım olmuşdur. Qeyd edək ki, bu il də həmin ödənişlərdə artımın davam etməsi gözlənilir.

Məşğulluq sahəsində də işlər uğurla davam edir. Rəsmi statistikaya görə, ca-




ri ilin yanvar-mart aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyindəki Dövlət Məşğulluq Agentliyinə (DMA) 84,7 min şəxs aktiv məşğulluq tədbirlərinə cəlb olunub. Onlardan 27,2 min şəxsin münasib işlərlə təmin edilməsi, 1200-dək şəxsin kiçik ailə təsərrüfatlarını yaratmaq üçün özünüməşğulluq proqramına cəlb olunması məşğulluğun genişləndirilməsi üçün atılan addımların göstəricisidir. Ümumiyyətlə, DMA bu ilin sonunadək 420 mindən çox şəxsi aktiv məşğulluq proqramlarına cəlb etməyi hədəfləyib. Bu proqram çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda artıq 266 şəxsin öz doğma torpaqlarında kiçik təsərrüfatlarını qurmasına dəstək verilib.

Sosial-iqtisadi həyatın canlanmasında önəmli rol oynayan əmək yar-




markalarının, peşə kurslarının təşkili də işğaldan azad edilmiş ərazilərimizdə sakinlərin işlə təminatına dəstək verən amillərdəndir. Bundan əlavə, ƏƏSMN tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən "Məşğulluğa dəstək layihəsi" özünüməşğulluq proqramının genişləndirilməsinə, həssas əhali qruplarına aid şəxslərin kiçik biznesə çıxışına mühüm dəstəkdir. Layihə üzrə həssas qruplara aid artıq 24 min işsiz şəxs üçün istehsal və xidmət sahələri üzrə kiçik bizneslər yaradılıb. 22 min işsiz şəxsi əhatə edən bu layihənin icrasının nəticəsi




olaraq, iştirakçıların sayı artmaqda davam edir.

Məlumdur ki, Dayanıqlı və Operativ Sosial Təminat (DOST) mərkəzlərində xidmətlərin çevikliyinin təmin olunması daim diqqətdə saxlanılır. Beynəlxalq səviyyədə də yüksək qiymətləndirilən DOST konsepsiyası əsasında dövlət sosial xidmətləri "bir pəncərə"dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş məmnunluğuna uyğun təqdim edilir. Təkcə bu ilin 3 ayında 213 min vətəndaş DOST mərkəzlərinin xidmətlərindən faydalanıb. Onu da qeyd edək ki, bu xidmətlərin sayı getdikcə artır. Belə ki, Prezident İlham Əliyevin 12 mart 2025-ci il tarixli fərmanı ilə DOST Agentliyinin Nizamnaməsi və DOST mərkəzlərində göstərilən xidmətlərin siyahısı təkmilləşdirilib. Siyahıda bir sıra yeni




xidmət istiqamətləri də əksini tapıb. Beləliklə də DOST mərkəzlərində göstərilən xidmətlərin sayı 156-dan 161-ə çatdırılıb.

Nazirliyin reabilitasiya mərkəzlərinin fəaliyyəti də əhalinin əlilliyi olan təbəqəsi tərəfindən razılıqla qarşılanır. Yalnız bu ilin ilk üç ayında həmin mərkəzlərdə əlilliyi olan 27,9 min şəxsə reabilitasiya xidmətləri göstərilib, 4500 əlil şəxsə 29,4 min reabilitasiya vasitəsi verilib. ƏƏSMN tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya mərkəzlərində ənənəvi üsullarla paralel olaraq, 2018-ci ildən ötən dövrdə qabaqcıl dünya təcrübəsinə uyğun olaraq robotik reabilitasiya, sosial-psixoloji reabilitasiya, yoqa, ippoterapiya, dance ability (rəqs terapiyası) və s. kimi reabilitasiya üsullarının da tətbiqinə başlanılıb. Həmçinin stasionar və ambulator xidmətlərlə yanaşı, son illər icma əsaslı, telereabilitasiya, səyyar formalarda da reabilitasiya xidmətləri göstərilir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 26 aprel (№ 83).- S.11.